# HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA RƏHBƏRLİK ETDİYİ İLLƏRDƏ DİPLOMATİK UĞURLARI

**Ədalət Qasımov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
“Əliyevşünaslıq” şöbəsinin müdiri, t.e.d.
E-mail: adaletqasimov56@mail.ru

## DIPLOMATIC SUCCESSES OF HAYDER ALIYEV DURING THE YEARS HE LEADED THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC

**Adalat Gasymov**

**Summary**

The article on the basis of richactual materials presents comprehensive study of national leader Heydar Aliyev’s many-branched diplomatic activities in 1991-1993 for the protection of the Nakhchivan Autonomous Republic against Armenian aggression, Ensuring security of the population, solution of military – political and social-economic problems of the region.

The article also contains a comprehensive coverage of the active activities of Heydar Aliyev on creation and development of the political and economic relations with the neighboring Turkey and Iran, on drawing attention of the international organizations to the situation in Nakhchivan.

**Key words:** population security, socio-economic, aggressor, autonomous republic.

## HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA RƏHBƏRLİK ETDİYİ İLLƏRDƏ DİPLOMATİK UĞURLARI

**Ədalət Qasımov**

**Xülasə**

Məqalədə zəngin faktiki materiallar əsasında ümummilli lider Heydər Əliyevin 1991-1993-cü illərdə çoxşaxəli diplomatik fəaliyyətinin hərtərəfli tədqiqi təqdim olunur. Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək, regionda hərbi-siyasi və sosial-iqtisadi problemləri həll etmək.

Məqalədə, həmçinin tarixi sənədlərə əsaslanaraq, Heydər Əliyevin qonşu Türkiyə və İranla siyasi və iqtisadi əlaqələrin yaradılması və inkişafı, beynəlxalq təşkilatların diqqətinin Naxçıvandakı mövcud vəziyyətə cəlb edilməsi istiqamətində fəal diplomatik fəaliyyəti vurğulanır.

**Açar sözlər:** əhalinin təhlükəsizliyi, sosial-iqtisadi, təcavüzkar, muxtar respublika

## ДИПЛОМАТИЧЕСКИЕ УСПЕХИ ГЕЙДАРА АЛИЕВА В ГОДЫ РУКОВОДСТВА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

**Адалат Гасымов**

**Аннотация**

В статье на основе богатого фактического материала представлено всестороннее исследование многоплановой дипломатической деятельности общенационального лидера Гейдара Алиева в 1991-1993 гг. по защите Нахчыванской Автономной Республики от армянской агрессии, обеспечению безопасности населения, решению военно-политических и социальных -экономические проблемы в регионе.

В статье также на основе исторических документов освещается активная дипломатическая деятельность Гейдара Алиева по созданию и развитию политических и экономических отношений с соседнуй Турцией и Ираном, по привлечению внимания международных организаций к создавшемуся положению в Нахчыване.

**Ключевые слова:** безопасность населения, социально-экономическая ситуация, агрессор, автономная республика.

**Giriş.** 1980-ci illərin sonu 90-cı illərin əvvəllərindən başlayaraq Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasəti nəticəsində, muxtar respublikanın ölkənin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş və ağır şəraitdə yaşamağa məcbur olmuşdu. Bölgədə həyat şəraiti getdikcə mürəkkəbləşir, əhalinin ərzaq və gündəlik tələbat malları, yanacaqla təmin edilməsində ciddi problemlər yaranırdı. Muxtar Respublikanın Ermənistanla sərhəddəki kəndlərinə aramsız hücumlar, mərkəzi və respublika hökuməti orqanlarının cinayətkar fəaliyyətsizliyi, Ermənistandan qovulan minlərlə azərbaycanlı qaçqının burada cəmləşməsi vəziyyəti daha da gərginləşdirmişdir. İqtisadi və siyasi böhran içində çarpışan, erməni təcavüzü qarşısında əliyalın və köməksiz qalan Naxçıvan məhv olmaq təhlükəsi ilə üz-üzə dayanmışdı. Tale Heydər Əliyevi bu regiona göndərməklə Naxçıvanı, Dağlıq Qarabağın və Azərbaycanın digər işğal olunmuş rayonlarının acı aqibətindən qorudu. Yalnız cahanşümül siyasətçi və strateq Heydər Əliyevin müdrik və gərgin diplomatik fəaliyyəti nəticəsində bu müqəddəs vətən torpağını düşmən caynağından xilas etmək mümkün oldu.

1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra Naxçıvan torpağını erməni təcavüzündən qorumaq, insanların təhlükəsizliyini təmin etmək, bölgəni sosial-iqtisadi böhrandan çıxarmaq üçün Heydər Əliyev ciddi tədbirlər görməyə başladı.

Naxçıvanın düşdüyü konkret geosiyasi va tarixi şəraiti nəzərə alaraq qarşıda duran vəzifələri həll etmək üçün siyasi-diplomatik üsula üstünlük verən Heydər Əliyev ən çətin anlarda belə danışıqlar yolunu seçdi.

Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə ən böyük tarixi, diplomatik uğurlardan biri muxtar respublika ərazisində yerləşən Sovet Ordu hissələrinin və sərhəd dəstələrinin qansız-qadasız çıxarılması, bu zaman onlara məxsus silah-sursatın, texnikanın, əmlakın tamamilə Azərbaycanın ixtiyarına verilməsinə nail olması idi. Heydər Əliyev bu mürəkkəb işi özünəməxsus elə incə diplomatik gedişlərlə həyata keçirmişdi ki, keçmiş MDB məkanında, hətta Şərqi Avropada, sovet qoşunlarının çıxarılması zamanı müşahidə olunmuş gərginliklər burada yaşanmamışdı.

Heydər Əliyevin Ali Məclisin sədri seçilməsinə qədər Naxçıvanda yerləşən sovet qoşun hissələri ilə yerli əhali və hakimiyyət orqanları arasında münasibətlərdə gərginlik hökm sürürdü. Ayrı-ayrı hərbçilərin hüquqa zidd hərəkətləri, ermənilərlə əlbir olmaları naxçıvanlılar arasında onlara qarşı böyük narazılıq yaratmışdı [1, s.161].

Heydər Əliyev muxtar respublikanın rəhbəri seçildikdən sonra hərbçilərlə münasibətin nizamlanması və onların hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində çox səmərəli addımlar atmağa başladı. 1991-ci il oktyabrın 26-da Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında Naxçıvan MR ərazisində yerləşən qoşun hissələrinin statusu haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi [2, s.509-510].

Həmin illərdə Heydər Əliyevin fəal diplomatiyası qoşun hissələrinin və sərhəd dəstələrinin fəaliyyəti ilə bağlı məsələlərin Azərbaycanın mənafeyinin qorunması şərti ilə uğurlu həllini tapdı. Məhz onun qətiyyətli tədbirlərindən sonra müəmmalı şəkildə 1990-cı ilin sonunda Naxçıvan MR ərazisində yerləşən sərhəd məntəqələrinin Ermənistan ərazisindəki sərhəd dəstələrinə tabe edilməsi barədə gərar ləğv edilmiş və onlar yenidən Naxçıvan ərazisində yerləşən 41-ci sərhəd dəstələrinin tabeliyinə qaytarılmışdı [1, s.162].

Heydər Əliyevin Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi dairəsi və 75-ci diviziyanın komandanlıqları ilə apardığı danışıqlar nəticəsində diviziyanın ləğv edilməsi və onun bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqinda razılıq əldə edildi.

1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycanın milli ordusunun 5-ci əlahiddə motoatıcı briqadasına verilməsi haqqında sənədlərin imzalanması ilə diviziyanın şəxsi heyəti Naxçıvanı tamamilə tərk etdi [5, 1992, 22 avqust].

1992-ci il avqust-sentyabr aylarında həmçinin 41-ci sərhəd dəstəsinin ləğv edilməsi, onun bütün hərbi-texniki və təsərrüfat əmlakının Azərbaycan Respublikası 1-ci sərhəd dəstəsinə verilməsi barədə razılaşma əldə edilmiş və yerinə yetirilmişdi. 1992-ci il sentyabrın 29-da sərhəd dəstəsinin ləğvi və onun funksiyalarının, əmlakının Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinə veril-

məsi haqqında sənədlərin imzalanması mərasimi keçirildi və elə həmin gün 41-ci sərhəd dəstəsinin sonuncu zabit və əsgərləri muxtar respublika rəhbərləri və ictimaiyyətin nümayəndələri tərəfindən Naxçıvandan yola salındı [2, s. 545-549].

Beləliklə, Heydər Əliyevin siyasi bəsirəti nəticəsində keçmiş Sovet ordusunun və sərhəd qoşunlarının bütün hissələri Naxçıvandan tamamilə çıxarıldı. Bu zaman həmin hissələrin bütün hərbi və təsərrüfat əmlakı Azərbaycan Respublikasının ixtiyarına keçdi. Təxminən iki əsr müddətində xarici dövlətin Naxçıvanda yerləşmiş hərbi hissələrinin muxtar respublika ərazisindən münaqişəsiz və qarşılıqlı anlaşma şəraitində çıxarılması o dövr üçün çox fenomenal hadisə idi və bu yalnız Heydər Əliyevin xidmətləri sayəsində baş tutmuşdu. Halbuki, qonşu Gürcüstandan sovet (rus) qoşunları yalnız 2007-ci ildə beynəlxalq danışıqlar və müqavilələr əsasında çıxarılmış, bəzi MDB ölkələrində, o cümlədən qonşu Ermənistanda isə hələ də qalmaqdadır.

1990-cı ilin əvvəllərində Azərbaycanda hərbi siyasi vəziyyətin daha da gərginləşməsindən istifadə edən ermənilər Naxçıvana aramsız hücumlar edərək bölgəni işğal etməyə can atırdılar. Naxçıvanı ələ keçirmək üçün 1992-ci il mayın 1-dən başlanan hərbi təcavüz bir neçə gün davam etmiş, yalnız Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onun qarşısını müvəqqəti olaraq almaq mümkün olmuşdu [4, s.81].

Lakin ermənilər yenidən Naxçıvan ərazisinə hücum edərək Sədərək kəndini ələ keçirməyə çalışmışdılar. Hücum nəticəsində bir neçə insan həlak olmuş, Şərur rayonuna hücum nəticəsində əhali kəndlərindən məcburiyyət qarşısında qalaraq köçürülmüşdü. Bu zaman erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyev dünya ictimaiyyətinə, Türkiyə hökumətinə müraciət etdi. Türkiyənin o zamankı rəhbərliyi - Baş nazir S.Dəmirəl, Xarici İşlər Naziri H.Çətin, Baş Nazirin birinci müavini Ə.İnönü Heydər Əliyevə telefon etmiş, Naxçıvana xüsusi nümayəndə heyəti göndərmişdilər. Türkiyə hökuməti mayın 18-də gecəyarı toplaşaraq Naxçıvanla bağlı geniş bir bəyanat vermişdi. Naxçıvandakı vəziyyəti dünya ictimaiyyətinə çatdırmaq üçün Heydər Əliyev xarici ölkələrdən, Rusiyadan müxbirlər dəvət etmiş, onlara bölgədə yaranmış vəziyyət barədə obyektiv məlumat verilmişdi. Bu son dörd il ərzində Dağlıq Qarabağ müharibəsinin xarici və Rusiya mətbuatında birtərəfli, ermənipərəst mövqedən işıqlandırılması nəticəsində Azərbaycanın əleyhinə yaradılmış informasiya blokadasının yarılması səmtində atılmış mühüm addım idi. Heydər Əliyevin səylərinin nəticəsi olaraq bütün dünya informasiya orqanları Ermənistanın Naxçıvana hücumu barədə məlumatlar vermiş, 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləmiş, NATO xüsusi bəyanatla çıxış etmişdi. Heydər Əliyevin diplomatik fəaliyyəti nəticəsində dünya ictimaiyyətində düzgün və obyektiv təsəvvür yaradılmış və Ermənistanın təcavüzkar mövqeyi ifşa edilmişdi. Bütün bu addımlar öz bəhrəsini verməyə başlamış, Ermənistanın müdafiə naziri V.Sarkisyan Heydər Əliyevə müraciət edərək danışıqlar yolu ilə münaqişəni aradan qaldırmaq arzusunu bildirmişdi [2, s.530].

Heydər Əliyevin diplomatik fəaliyyətində muxtar respublikanın həyatı tələbatını ödəmək, nəqliyyat və kommunikasiya əlaqələrini bərpa etmək, bütövlükdə blokadanın yaratdığı mürəkkəb problemləri aradan qaldırmaq üçün qonşu Türkiyə və İran dövlətləri ilə qarşılıqlı əlaqələrin təşəkkül tapması və inkişaf etdirilməsi ciddi önəm daşıyırdı. 1991-ci ildə Heydər Əliyevin iştirakı ilə Naxçıvanla Türkiyə arasında müvəqqəti körpünün açılması, 1992-ci ildə Heydər Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri muxtar respublikanın dost ölkə ilə əlaqələrinin inkişafında mühüm mərhələ oldu. Heydər Əliyev səfər müddətində prezident Turqut Özalla görüşmüş, baş nazir Süleyman Dəmirəl ilə Türkiyə və Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında protokol imzalamışdır. Protokolda Türkiyə Respublikası tərəfindən Naxçıvan MR-ə maliyyə, iqtisadi və texniki yardım göstərilməsi nəzərdə tutulmuşdur. Muxtar respublikanın müxtəlif sahələrdə tələbatını ödəmək məqsədilə Türkiyə hökuməti Naxçıvana 100 mln. dollar məbləğində kredit ayırmağı öhdəsinə götürmüşdür. Heydər Əliyev Türkiyə ilə Naxçıvan arasında bağlanmış bu müqavilənin siyasi, iqtisadi, mənəvi əhəmiyyətini qeyd edərək çox böyük izaqgörənliklə onun Qars-Moskva müqavilələri kimi tarixə daxil olacağını, gələcək nəsillərin, bütün türk dünyasının bu sənədi öz tarixində həmişə araşdıracağını və sənədi imzalayanlara daim təşəkkürünü bildirəcəklərini göstərmişdir [3, s.615].

Heydər Əliyevin Türkiyəyə sonrakı rəsmi səfərləri zamanı aparılan danışıqlar, imzalanmış

sənədlər Naxçıvan-Türkiyə münasibətlərinin inkişafında yeni mərhələ yaratmış, muxtar respublikanın sosial-iqtisadi problemlərinin həllinə öz müsbət təsirini göstərmişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi problemlərinin həllində İran İslam Respublikası ilə də münasibətin təşəkkül tapmasına və inkişafına çalışırdı. Azərbaycanın müstəqilliyinin ilk dövrlərində İİR-lə münasibətlərdə müəyyən soyuqluq yaransa da, Heydər Əliyevin müdrik diplomatiyası, Naxçıvan- İran əlaqələrinin inkişaf etdirilməsi bölgənin düşdüyü böhrandan çıxmasına, həm də Azərbaycan- İran əlaqələrində tarazlığın təmin edilməsinə şərait yaratdı. 1992-ci ilin avqustunda Heydər Əliyevin İİR xarici işlər naziri Ə.Ə.Vilayətinin dəvətilə bu ölkəyə səfəri zamanı Naxçıvan MR ilə İİR arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdır [3, s.644; s.728-731]. 1993-cü ilin martında İİR-in Naxçıvanda baş konsulluğunun açılması, Heydər Əliyevin ikinci dəfə İİR-ə səfəri Naxçıvanla İran arasında əlaqələrin daha da genişlənməsinə təsir gösrtərdi [1, s.175].

Naxçıvan MR Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevin ən böyük diplomatik uğurlarından biri də, Azərbaycan, onun tərkib hissəsi olan Dağlıq Qarabağ və Naxçıvan ətrafında baş verən proseslər, Ermənistanın işğalçılıq siyasəti haqqında dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması, muxtar respublikanın sosial-iqtisadi, humanitar problemlərinə dünya dövlətlərinin, beynəlxalq birliyin diqqətini cəlb edə bilməsidir. Azərbaycana səfər edən hər bir diplomat Naxçıvana gəlməyə, Heydər Əliyevlə görüşüb onun mövqeyini öyrənməyə çalışırdı. Həmin illərdə Heydər Əliyev sayəsində Naxçıvan MR bütün informasiya vasitələrinin diqqət mərkəzinə çevrilmiş, öz tarixi ərzində heç vaxt xarici diplomat qəbul etməmiş Naxçivan şəhəri hər dün Heydər Əliyevlə görüşməyə can atan xarici nümayəndə heyətlərini qarşılamağa artıq vərdiş etmişdi.

1991-ci il dekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşları Ense G.Brayter və Obri A.Karlson Naxçıvanda Heydər Əliyevlə görüşən ilk amerikalı diplomatlar oldular. Bundan sonra, 1991-ci ilin aprelində ABŞ-ın Azərbaycanda ilk səfiri R.Finn, iyulun 17-də onu əvəz etmiş R.Mayls da Ali Məclisin sədri ilə görüşmüş, Naxçıvan və onun ətrafında baş verən hadisələr haqqında Heydər Əliyevdən ətraflı məlumat almışlar [1, s.177].

Heydər Əliyev həmçinin Böyük Britaniyanın Azərbaycandakı səfiri H.Fomston, Fransanın səfiri Y.Perre, BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid və digər xarici nümayəndələrlə görüşündə onların diqqətini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə cəlb edir, iri dövlətləri Ermənistan-Azərbaycan münaqişəsində obyektiv mövqe tutmağa çağırırdı.

B.Klintonu ABŞ-ın prezidenti seçilməsi münasibətilə təbrik edən Heydər Əliyev 20 yanvar 1993-cü ildə ona məktubla müraciət edərək Ermənistanın Naxçıvanı iqtisdai blokadaya alması nəticəsində muxtar respublikada ağır iqtisadı vəziyyət yarandığını onun nəzərinə çatdırmış və ABŞ prezidentindən Naxçıvan MR-ə humanitar yardım göstərilməsini xahiş etmişdir. B.Klinton Heydər Əliyevin bu məktubunu cavabsız qoymamış, Naxçıvana təcili yardım göstərmək barədə qərar qəbul etmişdir [1, s.177].

ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Puli 1993-cü ilin mayında Ermənistanın blokadası nəticəsində Naxçıvanın düşdüyü vəziyyəti öyrənmək və regiona yardım proqramı hazırlamaq üçün Naxçıvana gəlmiş və Heydər Əliyevlə görüşmüşdür.ABŞ konqresinin 907-ci düzəliıinə görə Azərbaycana yardım göndərilməsinə məhdudiyyət qoyulduğundan yardımın qeyri-hökumət təşkilatlarının xətti ilə göndərilməsi nəzərdə tutlurdu [2, s.732-733]. Bir müddət keçdikdən sonra Amerika Beynəlxalq Yardım və İnkişaf Agentliyinin - ADBİNTİN direktorunun sağlamlıq məsələləri üzrə baş müşaviri, doktor C.Vaythauz və həmin agentliyin Avropa-Asiya bölməsinin direktoru P.Kulakov Naxçıvana yardım göstərilməsi imkanlarını öyrənmək üçün muxtar respublikaya gəlmiş və Ali Məclisin sədri ilə görüşmüşdülər[3, s.791].

ABŞ-ın Naxçıvana humanitar yardım göstərilməsinin bölgə əhalisinin sosial ehtiyaclarının aradan qaldırılmasına müəyyən köməkliyi ilə bərabər, həm də böyük siyasi əhəmiyyəti var idi. Çünki erməni lobbisinin təsiri altında ABŞ konqresinin Azərbaycana hər hansı yardımını qadağan edən bədnam 907-ci düzəlişi qəbul etməsindən sonra belə qərarın verilməsi ABŞ hökumətinin nüfuzunu bərpa edəcək bir addım olardı.

Heydər Əliyevin yardım göstərməsi xahişi ilə B.Klintona məktubla müraciət etməsi Qərb

dövlətlərinin də diqqətini cəlb etmişdi. ABŞ-ın yardımından sonra Böyük Britaniya və Fransa dövlətləri də Naxçıvana yardım göstərilməsi ilə bağlı qərar qəbul etmişdilər [2, s.718-724].

1993-cü il martın 8-də Heydər Əliyevlə görüşən BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı Azərbaycandakı nümayəndəliyin proqramlaşdırma məsələləri üzrə rəhbəri Lois Rovira naxçıvanlı qaçqınlara yardım göstərəcəyi barədə məlumat vermişdi [2, s. 713-714].

Heydər Əliyev BMT, Avropa Birliyi, NATO, ATƏM və s. beynəlxalq qurumların diqqətinin Naxçıvanda yaranmış vəziyyətə cəlb etməyə nail olmuşdu. Bunun nəticəsində BMT Təhlükəsizlik Şurası Ermənistanla yanaşı, Naxçıvana da ərzaq və yanacaq yardımı göstərilməsi ilə bağlı dünya dövlətlərinə müraciət etmişdir [2, s.708]. 1991-ci ilin fevralinda BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid muxtar respublikada yaranmış sosial-iqtisadi vəziyyəti öyrənmək və humanitar yardım üçün BMT baş katibinə məlumat vermək üçün Naxçıvana getmişdi. Heydər Əliyev ona Naxçıvanda vəziyyətin gərginliyi barədə məlumat vermiş, uzun müddət blokada vəziyyətində yaşadığına görə beynəlxalq qaydalara uyğun olaraq Naxçıvan MR-ə təcili humanitar yardım göstərilməsinə və blokadaya alındığı üçün Naxçıvanın düşdüyü vəziyyətin beynəlxalq ictimaiyyətə çatdırılması, regiondakı vəziyyət barədə obyektiv təsəvvür yaradılmasının zəruriliyini BMT təmsilçisinin diqqətinə çatdırmışdır [2, s. 707-708].

Dünyanın ən nüfuzlu təşkilatlarından biri olan Avropa Birliyi də Naxçıvanın iqtisadi vəziyyətini öyrənmək və humanitar yardım göstərmək üçün buraya öz nümayəndələrini göndərmişdir [2, s.707-708].

Heydər Əliyevi münaqişədən zərər çəkən hər bir azərbaycanlının taleyi narahat edir, erməni quldurları tərəfindən girov götürülmüş soydaşlarının azad olunması və öz ailələrinə qaytarılması üçün bütün imkan və vasitələrdən istifadə edirdi. Məhz onun Ermənistan rəhbərliyi ilə apardığı gərgin və intensiv danışıqlar nəticəsində Şahbuz rayon sakinləri E.Mədətov, E.Hüseynov, Goranboy rayon sakinləri U.Bayramov, S.Bədəlov erməni əsirliyindən azad edilmişdir [1, s.161].

Beləliklə, Heydər Əliyevin çoxşaxəli diplomatik fəaliyyəti nəticəsində Naxçıvanın təhlükəsizliyi təmin edilmiş, Dağlıq Qarabağ və Naxçıvan haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmış, qonşu Türkiyə və İranla sıx əlaqələr yaranmışdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi. Bakı: "Turxan" NPB, 2013.
2. Qayıdış (1990-1993). Sənədlər toplusu. Baki, Azərbaycan, 1996.
3. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Baki, "Azərbaycan"nəşriyyatı,2008.
4. Məmmədov M.Y. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər. Bakı, "Şirvan" nəşr, 2005.
5. "Şərq qapısı" qəzeti.